بِسۡمِ ٱللَّهِ ٱلرَّحۡمَٰنِ ٱلرَّحِيمِ

Allahı və yanımda olan mələkləri şahid tuturam, siz də şahid olun ki, mənim etiqadım nicat tapmış firqənin, Əhli Sünnə və Camaatın etiqadıdır. O, Allaha, Onun mələklərinə, kitablarına, rəsullarına, ölümdən sonra dirilməyə, qədərin xeyrinə və şərinə iman gətirməkdən ibarətdir.

Allahın Öz Kitabında Özünü vəsf etdiyinə və həmçinin Rəsulunun (salləllahu aleyhi və səlləm) sözlərində Onu vəsf etdiyinə təhrif və inkar etmədən iman gətirmək, Allaha imandan sayılır. Beləliklə, etiqad edirəm ki, həqiqətən Allah subhanəhu və təalənin "**mislində heç bir şey yoxdur. O, eşidəndir, görəndir**." (əş-Şura, 11). Onun Özünü vəsf etdiyini Ondan inkar etmirəm, sözlərin yerini dəyişmirəm, Onun adları və ayələri barəsində başqa tərəfə meyl etmirəm. Allahın sifətlərini yaratdıqlarının sifətlərinə bənzətmirəm və onlara keyfiyyət vermirəm. Çünki Allah təalənin adını daşıyan, bənzəri və tayı-bərabəri olan başqa birisi yoxdur. Allah, məxluqatı ilə müqayisə edilə bilməz. Həqiqətən də Allah subhənəhu, Özünü və başqasını daha yaxşı tanıyandır. Ən doğru sözü söyləyən və daha gözəl danışandır. Allah, Ona keyfiyyət verən və Onu bənzədən müxaliflərin Ona verdikləri vəsflərdən Özünü uzaq tutmuşdu. Həmçinin Allahın adlarını təhrif və inkar edənlərin inkarından Özünü uzaq tutaraq buyurur: "**Sənin Rəbbin – yenilməz qüvvət sahibi olan Rəbb, Ona aid etdikləri sifətlərdən tamamilə uzaqdır! Peyğəmbərlərə salam olsun! Aləmlərin Rəbbi olan Allaha həmd olsun!"** (əs-Saffat, 180-182).

Nicat tapmış firqə,

Allah təalənin felləri barədə qədərilərlə cəbərilər arasında;

Allahın verəcəyi əzab məsələsində də murciələrlə vaidiyyə arasında;

İman və din məsələsində hərurilər və mötəzilələrlə murciə və cəhmilər arasında;

Allahın Elçisinin (salləllahu aleyhi və səlləm) səhabələri məsələsində rafizilərlə xəvariclər arasında orta yol tutmuşlar.

Etiqad edirəm ki, Quran Allahın kəlamıdır. Nazil edilmişdir, məxluq deyil. Ondan başlamış və Ona da qayıdacaqdır. Allah həqiqətən də onu danışmışdır. Onu qulu, rəsulu, vəhyinə təyin etdiyi əmini, qulları ilə Özü arasında səfiri, peyğəmbərimiz Muhəmmədə (salləllahu aleyhi və səlləm) nazil etmişdir.

Mən iman edirəm ki, Allah istədiyini edəndir, Onun iradəsi olmadan nə isə baş vermir, heç nə Onun istəyi xaricində qalmır, aləmdə elə bir şey yoxdur ki, Onun təqdirindən kənarda olsun. Hər bir şey Onun tədbiri ilə baş verir. Heç kəs məhdud qədərdən qaça bilməz. Kimsə, yazılmış lövhədə onun üçün yazılandan yan keçə bilməz.

Peyğəmbərin (salləllahu aleyhi və səlləm) ölümdən sonra olacaqlar barədə dediyi hər bir xəbərə iman gətirilməsini etiqad edirəm. Qəbir fitnəsinə və orada olacaq nemətlərə iman gətirmişəm. Həmçinin ruhların cəsədlərə qayıtmasına iman gətirirəm. İnsanlar aləmlərin Rəbbinin hüzuruna ayaqyalın, çılpaq və sünnət olunmamış halda qalxarlar. Günəş onlara yaxınlaşar. Sonra tərəzilər qurular və insanların əməlləri onlarla çəkilər. **“Məhz tərəziləri ağır gələnlər nicat taparlar. Tərəziləri yüngül gələnlər isə özlərinə ziyan edənlərdir. Onlar Cəhənnəmdə əbədi qalarlar”** (əl-Muminun, 102-103). Səhifələr paylanar. Bəziləri kitabını sağ əli ilə, bir başqaları da kitabını sol əli ilə götürəcək.

İman gətirirəm ki, Qiyamət günü Ərəsatda Peyğəmbərin (salləllahu aleyhi və səlləm) hovuzu olacaqdır. Onun suyu süddən ağ və baldan şirindir. Piyalələrin sayı göydəki ulduzların sayı qədərdir. Kim ondan bir dəfə içsə, ondan sonra bir daha susuzluq hiss etməyəcəkdir.

İman gətirmişəm ki, Sirat, Cəhənnəmin üzərindən salınmışdır. Adamlar öz əməllərinə müvafiq olaraq onu keçəcəklər.

Həmçinin Rəsulullahın (salləllahu aleyhi və səlləm) şəfaətinə, onun birinci şəfaət edəcəyinə və ilk olaraq ona şəfaət etməyə izn veriləcəyinə iman gətirmişəm. Onun şəfaətini ancaq bidət və zəlalət əhli inkar edər. Lakin şəfaət yalnız izn və razılıq verildikdən sonra olar. Necə ki, Allah təalə buyurur: “**Onlar yalnız Onun razı qaldığı şəxslərdən ötrü şəfaət diləyir**” (Ənbiyə 28). Allah buyurur: “**Onun izni olmadan Onun yanında kim şəfaət edə bilər?**” (Bəqərə, 255). Uca olan buyurur: “**Göylərdə neçə-neçə mələklər vardır ki, onların şəfaəti Allahın istədiyi və Özünün razı qaldığı kimsələrdən başqa heç bir fayda verməz**” (Nəcm, 26). Allah ancaq tövhiddən razı qalır və yalnız tövhid əhlinə izn verir. Müşriklərə gəlincə, onların şəfaətdən heç bir payı yoxdur. Necə ki, Allah təalə buyurur: “**Odur ki, şəfaət edənlərin şəfaəti onlara fayda verməz**”(Muddəssir, 48).

İman gətirirəm ki, Cənnət və Cəhənnəm yaradılmışlar. Onların hər ikisi bu gün mövcuddurlar və heç biri fani deyil.

Möminlərin bədir gecəsi bədirlənmiş ayı bir-birilərinə mane olmadan gördükləri kimi, Qiyamət günü öz gözləri ilə Allahı görəcəklərinə iman gətirmişəm.

Peyğəmbərimiz Muhəmmədin (salləllahu aleyhi və səlləm) nəbilərin və rəsulların sonuncusu olduğuna iman gətirmişəm. Onun risalətinə iman gətirməyənin və peyğəmbərliyinə şahidlik etməyənin imanı doğru sayılmaz. İman gətirmişəm ki, onun ümmətinin ən əfzəli Əbubəkr Əs-Siddiq, sonra Ömər əl-Faruq, sonra Osman Zun-Nureyn, sonra Əli Əl-Murtada, sonra on nəfərdən qalanlar, sonra Bədr iştirakçıları, sonra Beyətur-Ridvan əhli olan ağac altında beyət edənlər, sonra qalan səhabələrdir. Allah onlardan razı olsun!

Mən, Rəsululahın (salləllahu aleyhi və səlləm) səhabələrini özümə dost tuturam. Allah onlardan razı olsun. Onların yaxşı əməllərini zikr edirəm. Allahın onlardan razı olmasını diləyirəm. Onlar üçün bağışlanma diləyirəm. Onların naqisliklərindən və aralarında baş verənlərdən danışmıram və fəzilət sahibi olduqlarını etiqad edirəm. Bununla da ayədə buyurulana əməl edirəm: "**Onlardan sonra gələnlər deyirlər: "Ey Rəbbimiz! Bizi və bizdən əvvəlki iman gətirmiş qardaşlarımızı bağışla. Bizim qəlbimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə. Ey Rəbbimiz! Həqiqətən də, Sən Şəfqətlisən, Rəhmlisən!**" (əl-Həşr, 10).

Allahdan Rəsulullahın (salləllahu aleyhi və səlləm) bütün pisliklərdən uzaq olan pak zövcələrindən razı olmasını diləyirəm.

Mən övliyaların kəramətini və onların qeyri-adi işlərini təsdiqləyirəm. Bununla yanaşı onlar Allah təaləyə aid olan heç bir haqqa sahib deyillər. Yalnız Allahın qadir olduğu işlər onlardan istənilməz.

Allah Rəsulu (salləllahu aleyhi və səlləm) şahidlik etdiyindən başqa, mən heç bir müsəlmanın Cənnətlik yaxud Cəhənnəmlik olduğuna şahidlik etmirəm. Lakin muhsinə görə ümid edirəm, günahkara görə isə qorxuram. Heç bir müsəlmanı günaha görə təkfir etmir və İslam dairəsindən çıxartmıram.

İtaətkar və ya fasiq olmasına baxmayaraq hər bir başçının rəhbərliyi altında cihadın davam etməsini düzgün hesab edirəm. Onların arxasında camaat namazı qılmaq icazəlidir. Cihad, Allahın Muhəmmədi (salləllahu aleyhi və səlləm) göndərdiyi andan, ümmətin sonuncularının Dəccalı öldürməsinə qədər davam edir. Nə zalımın haqsızlığı, nə də ədalətlinin ədaləti cihadı batil etməz.

Saleh yaxud günahkar olmasından asılı olmayaraq, müsəlmanların başçılarının verdikləri əmrləri, Allaha asilik istisna edilməklə, eşidib itaət etməyi vacib sayıram. Kim xəlifəliyi, hətta qılınc gücünə olsa belə, əldə edərsə və insanlar ətrafına toplaşarsa, ondan razı qalarsa, ona itaət etmək vacibdir. Ona qarşı çıxmaq haramdır.

Bidət əhli ilə onlar tövbə etməyənə qədər münasibət kəsilməsini və onlardan ayrılmagı düzgün hesab edirəm. Onlar haqqında hökmü zahirə görə verirəm. Qəlblərini Allaha həvalə edirəm. Mən etiqad edirəm ki, dindəki bütün yeniliklər bidətdir.

Mən etiqad edirəm ki, iman dilin tələffüzü, əzaların əməli və qəlbin etiqadıdır; İtaətlərlə artır, asiliklərlə azalır. Onun yetmişdən çox şöbəsi vardır. Ən ucası Lə İləhə İlləllah şəhadəti, ən aşağısı isə yoldan bir maneəni götürməkdir.

Muhəmmədin pak şəriətinin yönəltdiyi yaxşı işləri əmr etməyi və pis işlərdən çəkindirməyi, vacib görürəm.

Bu, müxtəsər əqidədir. Məşğul olduğuma baxmayaraq onu, məndə olanlardan xəbəriniz olsun deyə yazdım. Danışdığlarımıza Allah vəkildir.